

*Ecazkar və füsunkar*

# TƏBİİ SƏRVƏTLƏRİMİZ

Azərbaycan çox zəngin yeraltı və yerüstü təbii sərvətlərə malikdir. Təbiətin yaratdığı və yaxud insan əməyinin məhsulu olan bu incilər dövlət tərəfindən xüsusi mühafizə olunur və davamlı tədbirlər həyata keçirilir. Park və qoruq yerlərinin əksəriyyəti təbii iqlim şəraitinə görə əlverişlidir. Təbiət yasaqlıqları da daxil olmaqla park və qoruqlar turist cəlbi baxımından da əhəmiyyətlidir.

Hazırda ölkəmizdə ümumi sahəsi 892546,49 hektar xüsusi mühafizə olunan təbiət əraziləri, o cümlədən 10 milli park, 11 dövlət təbiət qoruğu və 24 dövlət təbiət yasaqlığı fəaliyyət göstərir.

Dövlət təbiət qoruğu mövcud təbiət kompleksləri qorumaq, təbiət proseslərinin təbii hərəkətlərini öyrənmək üçün xüsusi qorunan təbiət ərazisidir.

Dövlət təbiət yasaqlığı təbiət komplekslərinin və onların komponentlərinin qorunması və ya bərpası, habelə ekoloji tarazlığın saxlanılması üçün əhəmiyyət daşıyan sahəsidir.

Milli Parkın yaradılmasında məqsəd ərazidə müxtəlif növ heyvanların qorunub saxlanması ilə yanaşı, ekoloji monitorinqin həyata keçirilməsi, əhalinin ekoloji cəhətdən maarifləndirilməsi və turizm üçün əlverişli şərait yaradılmasından ibarətdir.

Milli parklarımız Abşeron yarımadasında, ölkənin şimal, cənub və qərb hissəsində yerləşməklə rəngarəng biomüxtəliflik və landşaft komplekslərini əhatə edir. Milli parklar ekoloji, tarixi, estetik və digər əhəmiyyət daşıyan təbii komplekslərin yerləşdiyi və təbiəti mühafizə, istifadə olunan təbiəti mühafizə və elmi-tədqiqat idarələri statusuna malik olan ərazilərdir. Respublikamızın ərazisində yerləşən milli parkların hər biri landşaftına, flora və faunasına görə fərqlənir və maraq doğurur.

Qəzetimizin bu sayında Milli parklar seriyasından Hirkan Milli Parkı haqqında yazını dərc edirik.

**"Respublika".**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatları əsasında hazırlanıb

## Hirkan Milli Parkı

**Hirkan National Park**




| | |
|---|---|
| Yaranma tarixi | 9 fevral 2004-cü il |
| Yerləşməsi | Talış dağları (Astara və Lənkəran rayonları) |
| Mütləq hündürlüyü | 243 m |
| Sahəsi | 40358 ha |
| Landşaft | Meşə, dağ-meşə |
| Rast gələnən bitki növləri | budaqlı danaya, hirkan bigəvəri, Pastuxod daşsarmaşığı, Buasye armudu, qanadmeyvə yalanqoz, ürəkyarpaq qızılağac, dəmirağac, şabalıdyarpaq palıd, vələsyarpaq azatağacı, vələs, şərq fıstığı və s. Parkda ümumilikdə 174 növ ağac və kol cinsləri bitir, onlardan 36-sı endemikdir. |
| Rast gələnən heyvan növləri | qara leylək, hirkan arıquşu, qaratoyuq, sığırçın, çöl muymulu, Talış qırqovulu, Türküstan qırğısı, çöl donuzu, porsuq, yenot, canavar, tülkü və s. Milli Parkda 117 növdə quş, 40 növdə məməlilər, 550-yə yaxın növdə həşərat məskunlaşıb. |
| "Qırmızı Kitab"a daxil olan növlər | Hirkan şümşəsi, Hirkan qovağı, Lənkəran gülxətmisi, giləmeyvəli qaraçöhrə, Talış uzunbığı, Talış məxməri kəpənəyi, qara leylək, cırtdan qartal, tirəndaz, Ön Asiya bəbiri, qonur ayı, vaşaq, zolaqlı kaftar və s. |



## Hirkan Milli Parkı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 9 fevral 2004-cü il tarixli Sərəncamı ilə Hirkan Milli Parkı 21435 hektar ərazidə yaradılmışdır. Sonradan parkın ərazisi 18923 hektar genişləndirilərək 40358 hektara çatdırılmışdır. Milli Park Azərbaycanın cənub-şərqində, Lənkəran və Astara inzibati rayonlarının ərazisində yerləşir, Talış dağlarının öz unikal təbiət kompleksləri ilə fərqlənən təbii ərazilərini əhatə edir.

Hirkan Milli Parkının yaradılmasında əsas məqsəd həmin ərazilərdə təbiətin kompleks şəkildə qorunması, üçüncü dövrün relikt və endemik bitki növlərinin mühafizəsi, Azərbaycan Respublikasının "Qırmızı Kitab"ına daxil edilmiş tipik flora və fauna növlərinin qorunub saxlanılması, ətraf mühitin monitorinqinin həyata keçirilməsi, ictimaiyyətin məlumatlandırılması, eləcə də tədqiqatlar, turizm və istirahət üçün şəraitin təşkilidir.

Milli Parkın ərazisinin çox hissəsini meşələr və şimal-qərbdən cənub-şərqə doğru uzanan dağlar əhatə edir. Ərazidə əsasən yayı quraq keçən mülayim-isti iqlim tipi hakimdir. Buranın yayı quraq, payızı rütubətli, qışı isə mülayimdir. Parkın ərazisi şaquli qurşaq üzrə çox ucalmasa da, şərqdən-qərbə doğru dağlara qalxdıqca, meşələrin şaquli qurşaqlar üzrə dəyişdiyi müşahidə edilir. Aşağı hissədə əsasən, şabalıdyarpaq palıd, dəmirağac, vələs və s. üstünlük təşkil edir. Hündürlüyə qalxdıqca, əsasən dəmirağac, qismən də şabalıdyarpaq palıd azalır, onları fısdıq meşələri əvəz edir.

Milli Parkın yerləşdiyi Lənkəran zonasının subtropik meşələrinin ən səciyyəvi xüsusiyyətlərindən biri də burada bir çox endemik, nadir ağac və kol bitkilərinin geniş yayılmasıdır. Meşələrdə ayıdöşəyi, Hirkan bigəvəri, Hirkan şümşadı, pırkal, müxtəlif lianlar geniş yayılmışdır. Bitkilərin əksəriyyətinin adı Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na daxil edilmişdir.

Hirkan Milli Parkında 450 növ ağac və kol cinslərinin 174 növü mövcuddur ki, onlardan 36-sı endemik növlərdir. Hirkan meşələrinin hər 1000 hektarına 32 bitki növü düşür. Aşağı dağ və dağətəyi qurşaqlarda dəmirağac meşələrində Qafqaz xurması, ipək akasiyası, Hirkan ənciri, adi göyrüş, heyva, ağyarpaq qovaq, qarağac, Hirkan azatı, su qıraqlarında isə söyüd, Qafqaz yemişanı, xırdayarpaq yemişan, əzgil, xırda alça kolları və s. müxtəlif növlər mövcuddur. Dəniz səviyyəsindən 1600 metr yüksəkliklərdə qaragilə, nadir halda qaracöhrə, meşə gilası, şabalıd və s. bitkiləri bitir.

Milli Parkın ərazisinin bitki aləminin zənginliyi burada çoxsaylı heyvanların yaşamasına imkan verir. Parkın heyvanat aləmi çox zəngindir. Burada məməlilərdən bəbir, xallı maral, vaşaq, porsuq, çöl donuzu, cüyür və s. növlərə rast gəlinir. Ərazidə suda-quruda yaşayan heyvan növlərindən adi triton, daraqlı triton, Suriya sarımsaqiyli qurbağası, Qafqaz xaçlıcası, adi quru qurbağası yayılmışdır. Sürünənlərdən Aralıq dənizi tısbağası, zolaqlı çılpaqgöz kərtənkələ, girdəbaş yovşanlıq kərtənkələ, xarabalıq kələzi, Eskulap ilanı və s. növlər mövcuddur. Parkın ərazisində 117 növdə quş nümunələrinə rast gəlinir ki, onların da 68-i məskunlaşmış növlərdir. Parkın ornitofaunasına daxil olan qara leylək, məzar qartalı, qıvrımlələk qutan, turac, mərmər cürə, Talış qırqovulu, Hirkan arıquşu, toğlugötürən və s. quşların adları Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na daxil edilmişdir. Həmçinin, ərazidə Ussuriya xallı maral da məskunlaşmış və yerli şəraitə uyğunlaşmışdır.

Milli Parkın entomofaunasında 550-yə yaxın həşərat növləri qeydə alınmışdır. Burada məskunlaşmış həşəratlar iki ekoloji qrupa ayrılır; mezofillər və kserofillər. Kserofillərə arılar, otbiçənlər, əqrəblər, bəzi gənələr və hörümçəklər, mezofillərə isə əsasən bitkiyeyən həşəratlar daxildir.

Hirkan Milli Parkının yerləşdiyi ərazidə 100-dən çox təbiət və mədəniyyət abidələri vardır. Ən məşhur təbii meşə abidələrindən biri Astara rayonunun Zünguləş kəndi yaxınlığında yerləşir. Xəzər dənizinin yaxınlığı, təbiətin rəngarəngliyi ərazidə ekoturizmin inkişafı və ətraf mühitin öyrənilməsi üçün əlverişli şərait yaradır.


**Kamil İSMAYIL,**
**"Respublika".**



Respublika.- 2022-ci il.- 3 avqust.- S. 6.